



HADİSƏLƏR KONTEKSTİNDƏ

Türkiyə

# "Bayraktar Kızılelma" ilk uçuşunu uğurla həyata keçirib




*Texnologiyanın sürətli inkişafı ilə paralel olaraq hər gün daha sürətlə dəyişən müdafiə doktrinalarında gələcək hava döyüşlərinin pilotsuz döyüş təyyarələri ilə həyata keçirilməsi nəzərdə tutulur. Bu kontekstdə, "Baykar" şirkəti tərəfindən milli və orijinal inkişaf işlərini davam etdirən pilotsuz döyüş təyyarə sistemi "Bayraktar Kızılelma" (MİUS) gələcəyin döyüş konsepsiyasını formalaşdırır.*

Bu baxımdan Türkiyə müdafiə sənayesi bu günlərdə daha bir tarixi uğura imza atıb. Ölkənin pilotsuz döyüş təyyarəsi "Bayraktar Kızılelma" ilk uçuşunu uğurla başa vurub. Təkər kəsmə sınağından sonra havaya qalxan "Kızılelma" Türk aviasiya tarixində dönüş nöqtəsi olaraq qeyd edilib.

"Bayraktar Kızılelma"nın tarixi uçuşu ilə bağlı açıqlama verən "Baykar" şirkətinin baş direktoru Haluk Bayraktar Türkiyənin aviasiya tarixində əlamətdar hadisə olaraq, 2021-ci ildə 100 faiz Baykar sərmayəsi ilə başlayan "Kızılelma" layihəsində ilk uçuşun bir illik rekord müddətində tamamlandığını vurğulayıb. O, Vətənimizə, millətimizə, ürəyi Türkiyə ilə döyünən bütün coğrafiyalara xeyirli olsun deyib.

Qeyd edək ki, "Bayraktar Kızılelma" turbofan mühərrikli, radarlardan gizlənmə qabiliyyətinə və havaya raket atma qabiliyyətinə malik pilotsuz döyüş təyyarəsidir. Dizayn və təkmilləşdirmə işləri Türkiyədə yerləşən pilotsuz uçan aparat istehsalçısı "Baykar Technology" tərəfindən həyata keçirilib.

Xatırladaq ki, "Baykar" şirkətinin tam olaraq öz imkanları ilə ərsəyə gətirdiyi "Bayraktar Kızılelma" layihəsinin icrası 2021-ci ildə başlayıb və 2022-ci ildə artıq ilk prototip istehsal olunub. Bu uğur təkcə Türkiyə üçün deyil, həm də dünya miqyasında pilotsuz uçuş aparatları (PUA) və müdafiə texnologiyaları sahəsində diqqətəlayiq olaraq tanınıb.

Layihənin kod adı ilk olaraq MİUS (Mübarizə Pilotsuz Təyyarə Sistemi) olub. Rəsmi "Kızılelma" adı isə 12 mart 2022-ci ildə ictimaiyyətə elan edilib. Layihənin adının açıqlandığı gün "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar ilk "Kızılelma" prototipinin istehsal xəttinə girdiyini bildirib. Uçuşa hazır prototip ilk dəfə "Teknofest 2022" çərçivəsində Samsunda ictimaiyyətə nümayiş etdirilib.

"Bayraktar Kızılelma" ilk uçuşunu 14 dekabr 2022-ci ildə həyata keçirib. 15 aprel 2023-cü ildə dördüncü uçuşu ilə sistem identifikasiyası testini uğurla başa vurub.

Türkiyənin ilk pilotsuz döyüş təyyarəsi olan "Bayraktar Kızılelma" hava-yer əməliyyatları ilə yanaşı, süni intellekt qabiliyyəti ilə həm də hava tipli döyüş aparmaq imkanına da malikdir. Bu innovativ dizayn həm müdafiə sənayesində, həm də beynəlxalq bazarda əhəmiyyətli rəqabət üstünlüyü təmin edir.

"Bayraktar Kızılelma" qısa uçuş-enmə zolağı, gəmilərdən qalxma və enmə qabiliyyəti ilə döyüş meydanlarında inqilab edir. 8,5 ton qalxma çəkisi və 1500 kiloqram yükdaşıma qabiliyyətinə malik "Bayraktar Kızılelma" yerli istehsal olan sursatlardan istifadə edir.



Maraqlı bir fakt da ondan ibarətdir ki, "Baykar" şirkəti 2023-cü ilə "Bayraktar TB2" üçün daha 370 milyon dollarlıq ixrac müqaviləsi imzalayaraq ABŞ, Avropa və Çindən olan rəqiblərini geridə qoymağı bacarıb.

Bu günə qədər bütün layihələrini öz qaynaqları ilə həyata keçirən "Baykar" 2003-cü ildə İHA Ar-Ge prosesinin başladığı gündən bu yana bütün gəlirlərinin 83 faizini ixracdan əldə edib. Türkiyə İxracatçılar Məclisinin (TİM) məlumatına görə, "Baykar" 2021-ci ildə müdafiə və aviasiya sektorunun ixracat üzrə lideri olub. 2022-ci ildə imzalanan müqavilələrdə ixracat nisbəti 99,3 faiz olan "Baykar" 1,18 milyard dollar ixracat həyata keçirib.

Son illərdə gəlirlərinin 90 faizdən çoxunu ixracdan əldə edən "Baykar" 2023-cü ildə ixracatın üçdəbirini təkcə müdafiə və aviasiya sektorunda həyata keçirib. Dünyanın ən böyük İHA ixracatçısı olan "Baykar"ın hazırda imzaladığı müqavilələrin 97,5 faizi ixraca əsaslanır. İndiyədək "Bayraktar TB2 SİHA" üçün 33 ölkə, "Bayraktar AKINCI TİHA" üçün isə 9 ölkə ixrac müqaviləsi imzalayıb.




**Esmira Yazkan ASLANOVA,**
**"Respublika" qəzetinin Türkiyə üzrə müxbiri.**